**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN İQTİSADİYYATINDA AQRAR SAHƏNİN SİSTEMLİ TRANSFORMASİYASI

İxtisas: 5312.01 "Sahə iqtisadiyyatı"

Elm sahəsi: İqtisad üzrə

İddiaçı: **Abbas Tofik oğlu Səfərov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad elmləri doktoru<br>**Vilayət İbrahim oğlu İsmayılov** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, dosent<br>**Anar Fazil oğlu Abbasov** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Püstə Oruc qızı Fərhadi** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Famil Vəli oğlu Rüstəmov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə dissertasiya şurası.

| | |
|---|---|
| Birgə Dissertasiya şurasının sədri: ________________ | AMEA-nın həqiqi üzvü,<br>iqtisad elmləri doktoru, professor<br>**Ziyad Əliabbas oğlu Səmədzadə** |
| Birgə Dissertasiya şurasının elmi katibi: ________________ | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Samirə Yaşar qızı Məmmədova** |
| Elmi seminarın sədri: ________________ | Əməkdar kənd təsərrüfatı işçisi,<br>iqtisad elmləri doktoru, professor<br>**İslam Hacı oğlu İbrahimov** |

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun əsas sferalarından biri olan aqrar sahə milli istehsal strukturunun inkişafında və formalaşmasında xüsusi əhəmiyyət kəsb edir. Aqrar sfera iqtisadiyyatın digər sahələrindən bir sıra özünəməxsus xüsusiyyətlərə görə fərqlənir və bunlar Azərbaycanda aqrar sektorun inkişafının qarşısıalınmaz məhdudiyyətlərini əvvəlcədən müəyyən etməyə imkan verir. Aqrar sahənin qeyd edilən xüsusiyyətlərinə onun coğrafi mövqeyini, təbii-iqlim şəraitini, kənd təsərrüfatı istehsalı amillərini, istehsal fondlarına bağlılığını, ölkənin inkişaf səviyyəsi və resurs potensialını, müvafiq bazarlarda kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətini, aqrar sektora dövlət dəstəyini, regionlar üzrə ərazilərin inkişafının xüsusiyyətlərini və s. aid etmək olar.

Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun rolunun yüksəldilməsində aqrar sahədə həyata keçirilən müxəlif məqsədli tədbirlər ölkənin bütün fəaliyyət istiqamətlərində, o cümlədən aqrar sahədə də yüksək nailiyyətlərin əldə olunmasına əlverişli şərait formalaşdırmışdır. Aqrar sahə əmək fəaliyyəti sferası olmaqla cəmiyyətin tələbatını təmin edən həyati əhəmiyyətli nemətlərin istehsalını həyata keçirir. Məhz aqrar sahənin bu funksiyası onun insan cəmiyyətinin formalaşması və inkişafında xüsusi rolunun danılmazlığını müəyyənləşdirir.

Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və s. sərəncam və fərmanları, digər normativ-hüquqi sənədlər qəbul edilmişdir ki, bunlar da qeyri-neft sektorunun, xüsusən aqrar sahənin transformasiyasına və bu əsasda inkişafına nail olmağı, iqtisadi sahələrin rəqabət qabiliyyətini artırmağı, o cümlədən sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı iqtisadi inkişaf strategiyasının formalaşmasını və kənd təsərrüfatı istehsalının qabaqlayıcı inkişafını təmin etməyi əsas hədəf və məqsəd kimi qarşıya qoyur.

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı,

emalı və realizasiyası ilə əlaqəli sahələrin inkişaf etdirilməsi bu sahədəki mövcud problemlərin aradan qaldırılması istiqamətində irəliləyişin əldə edilməsini təmin edəcəkdir. Belə ki, 2016-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə ölkəmizin kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı strateji hədəf (2020-ci ilədək), uzunmüddətli baxış (2025-ci ilədək) və sonrakı dövr üçün hədəf baxış üzrə strateji inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Bu da kənd təsərrüfatı sahəsində müvafiq dövrlər üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olduğunu və onun həyata keçirilməsi üçün müvafiq tədbirlər planının işlənib hazırlandığını özündə göstərir. Qeyd edilən strateji hədəflər ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi və gücləndirilməsi, kənd təsərrüfatında istehsal prosesinin dəyər zəncirinə aid olan həlqələrin çoxaldılması, aqrar sahədə istehsal avadanlıqları və vasitələri bazarının getdikcə inkişaf etdirilməsinə nail olunması, həmçinin bu sahənin istehsal və maliyyə resurslarının əlçatanlığının təmin edilməsi, kənd təsərrüfatı istiqamətində elmi-tədqiqatların yüksək səviyyəsinin təminatın və bu sahədə təhsilin keyfiyyətinə olan tələbin yüksəldilməsinin təmin edilməsi, xidmətlər sisteminin təkmilləşdirilməsi, bazar infrastrukturunun genişləndirilməsi əsasında istehsalçıların kənd təsəttüfatı məhsullarının satışını təmin edəcək bazarlara çıxışının əlçatan olması, aqrar sahədə əlverişli biznes mühitinin yaradılması, həmçinin kənd ərazilərində məskunlaşmış əhalinin rifah halının yaxşılaşdırılması məsələlərini özündə ehtiva edir.

Hal-hazırda aqrar sahədə dövlət tərəfindən həyata keçirilən pilləli islahatlar, bu istiqamətdə kənd təsərrüfatının inkişafını təmin edəcək yeni çağırışlarla əlaqəli strateji hədəflərin müəyyənləşdirilməsi və onların nəzərdə tutulan müddətlərdə icra edilməsi aqrar sahənin davamlı inkişafına və transformasiyasına əhəmiyyətli təsir göstərmişdir. Bu tədbirlər sırasında elektronlaşmanın tətbiqi (Elektron Hökumət Portalının yaradılması) vasitəsilə dövlət xidmətlərinin optimallaşdırılması, həmçinin bu sahədə səmərəli idarəetmə sisteminin qurulması müvafiq olaraq keyfiyyət

dəyişikliyini şərtləndirmişdir. Eyni zamanda bu qeyd edilmiş işlərin keyfiyyətlə icra edilməsi kənd təsərrüfatı və aqrar emal sənayesinin güclənməsi və təkmilləşdirilməsi üçün hərtərəfli imkanın yaranmasını təmin etmişdir. Ölkədə kənd təsərrüfatı və aqrar emal sənayesinin dayanıqlı inkişafının təmin edilməsi bir tərəfdən qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsi, digər tərəfdən ərzaq təhlükəsizliyinin təminatı nöqteyi nəzərindən olduqca əhəmiyyətli məsələdir. Bütün bu qeyd edilənləri nəzərə alaraq, kənd təsərrüfatının dayanıqlı inkişafı və yüksəlişinə hərtərəfli dəstək mexanizmi məqsədyönlü şəkildə nütəmadi olaraq təkmilləşdirilməlidir.

Aqrar sahənin inkişafına dövlət dəstəyi çərçivəsində Sahibarliğin İnkişaf Fondunun (SİF) strateji tədbirlər planında əsas prioritet hədəf olaraq kiçik və orta sahibkarlığın inkişafına dəstək verəcək güzəştli maliyyə resurslarına çıxış imkanlarının asanlaşdırılması, innovasiyalı texnologiyalar əsasında yeni sahibkarlıq subyektlərinin yaradılması, inkişafı və s. müəyyənləşdirilmişdir ki, bu da aqrar sahədə sistemli transformasiyanın mərhələlərlə həyata keçirilməsini şərtləndirir.

Nəzərə almaq lazımdır ki, aqrar sahədə transformasiya proseslərinin elmi cəhətdən əsaslandırılmış qaydada həyata keçirilməsi işğaldan azad olunmuş ərazilərimizin bərpası və reinteqrasiyası zamanı da xüsusi əhəmiyyət kəsb edəcəkdir.

Azərbaycan Respublikasının aqrar sahənin mövcud vəziyyəti, onun ehtiyatlar potensialı və perspektiv inkişafı istiqamətində aparılmış tədqiqatların nəticəsi göstərir ki, hazırda ölkə əhalisinin ərzaq təminatı çərçivəsində yerli kənd təsərrüfatı məhsullarının bir sıra növləri üzrə tələbatın ödənilməsi səviyyəsində geriliklər mövcuddur. Bütün bunlara əsaslanaraq qeyd edə bilərik ki, Azərbaycanın xalq təsərrüfatı kompleksi sistemində aqrar sahə strateji və sosial əhəmiyyətli sahələrdən biridir, onun səmərəliliyinin artırılması həmişə vacibdir və burada təsərrüfatçılığın bütün istiqamətlərində mütərəqqi üsullara, qabaqcıl beynəlxalq təcrübəyə və müasir elmi tədqiqatlara əsaslanan sistemli transformasiyanın aparılması zərurəti yaranır. Bu baxımdan da aqrar sahənin sistemli transformasiyasını əhatə edən aspektlərin dərindən araşdırılması olduqca əhəmiyyətlidir və bütün bunlar dissertasiyanın mövzusunun aktuallığını şərtləndirmişdir.

Mövzunun işlənmə dərəcəsinə aid isə onu qeyd etmək olar ki, respublikada aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsi problemlərinin tədqiqinə, fundamental yanaşmalara tanınmış iqtisadçı alimlərin çoxsaylı əsərləri həsr olunmuşdur. Aqrar sferanın dayanıqlı inkişafının konseptual əsasları Səmədzadə Z.Ə., Nuriyev Ə.X., Abbasov A.F., Alıyev İ.H., Ataşov B.X., Quliyeva A.E., Quliyev E.A., İbrahimov E.R., İbrahimov İ.H., İbrahimov E.Ə., İsmayılov V.İ., Hüseyn, R.Z., Qasımlı V.Ə., Xəlilov H.A., Salahov S.V. və digər ölkə alimlərimizin əsərlərində tədqiq edilmişdir. Aqrar sahənin inkişaf etdirilməsi ilə bağlı problem məsələlərinin tədqiqinə elmi yanaşmalar xarici ölkələrin alimlərindən Andreyeva A. A., Asmus O.V., Buzdalov İ. N., Qonçarov V.D., İvanova N. V., Kusakina O. N., Matyumina O.Y., Moryuvkin D.M., Myrdal G., Mohammad P.S., Ovcic C. və digərlərinin əsərlərində əks etdirilmişdir.

Bununla belə, Azərbaycan iqtisadiyyatında aqrar sahənin sistemli transformasiyası problemini əhatə edən məsələlər müasir tələblər baxımından kifayət qədər tədqiq edilməmiş və yeni kompleks elmi araşdırmalar tələb edir. Tədqiqat mövzumuzun seçilməsinə məhz bu amil səbəb olmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektləri, müəssisə və təşkilatların toplusu seçilmişdir. Tədqiqatın predmetini isə aqrar sahənin sistemli transformasiyası prosesində yaranan problemlərin aşkar edilməsi, transformasiya mexanizminin təkmilləşdirilməsi məsələləri, üsul və vasitələri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi müasir şəraitdə və yaxın perspektivdə aqrar sahənin dayanıqlı inkişafını təmin edən sistemli transformasiya aspektlərinin araşdırlması bu transformasiyaların təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlamaqdan ibarət olmuşdur.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və ardıcıl olaraq yerinə yetirilmişdir:

- çoxfunksional xarakterə malik aqrar sahənin davamlı inkişafı ilə əlaqəli mülahizələr əsasında Azərbaycanda kənd təsərrüfatı istehsalını təmin edən problemləri aşkar etmək;

- aqrar iqtisadiyyatın institusional struktur tiplərinin əsas mahiyyətini müəyyən edən keyfiyyət xüsusiyyətlərini sistemləşdirmək, kənd təsərrüfatının çoxfunksiyalı sisteminin emergent effekti təzahürlərini müxtəlif komponentlərdə fərqləndirmək, "məqsədlər - funksiyalar -struktur-davranış-nəticə" üzrə qarşılıqlı əlaqələr əsasında kənd təsərrüfatının təşkili paradiqmasını aydınlaşdırmaq;

- kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin qiymətləndirilməsi əsasında onun strategiyası modelini müəyyənləşdirmək;

- kənd təsərrüfatı istehsalı prosesinə rıçaq amillərinin təsirinin kompleks modelini işləyib hazırlamaq, onun əsasında Azərbaycanda aqrar sahənin dayanıqlı inkişafının təşkilati-iqtisadi mexanizminin vəzifələrini, həmçinin dayanıqlı inkişafı təmin edən təşkilati-iqtisadi mexanizminin modelləşdirilməsi ilə bağlı konseptual aspektlərini müəyyənləşdirmək;

- aqrar istehsalın idarə olunmasının qanunauyğunluqları və prinsipləri, idarəetmə sisteminin formalaşması və fəaliyyətinin metodoloji bazasının sistemləşdirilməsi əsasında bu sahənin dayanıqlı inkişafının yeni təşkilati-iqtisadi mexanizminin modelini vermək;

- müxtəlif təsərrüfat formalı kənd təsərrüfatı subyektlərinə dövlət dəstəyi strategiyasının mərhələlərlə həlli modelini təklif etməklə bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı müəssisələrinin gəlirləri ilə ümümi istehsal həcminin asılılıq modelini vermək;

- aqrar sahənin inkişafını təmin edən əsas amillərin kombinasiyasından ibarət məqsədlər ağacının elementlərinin fəaliyyətinin təşkil edilməsi əsasında aqrar sahədə transformasiya proseslərinin strateji idarə edilməsinin konseptual modelini tərtib etmək;

- aqrar sahənin sistemli transformasiyasını əks etdirən yeni modelini təklif etmək.

**Tədqiqat metodları.** Tədqiqat zamanı qarşıya qoyulan məqsədə uyğun olaraq bir sıra metodlardan, o cümlədən müşahidə, ümumiləşdirmə, sistemli və müqayisəli təhlil, monoqrafik və digər iqtisadi-statistik üsullardan istifadə edilmişdir. Birinci fəsildə milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsində aqrar sahənin rolu və inkişaf strategiyasının metodoloji əsaslarının tədqiq

edilməsində müqayisəli təhlil metodundan istifadə edilmişdir. Azərbaycan iqtisadiyyatında aqrar sahənin inkişaf dinamikasının müəyyənləşdirilməsində müqayisəli təhlil metodundan, həmin sahənin mövcud vəziyyətinin qiymətləndirilməsi üçün statistik təhlil metodundan istifadə edilmiş və aqrar sahənin sistemli transformasiyasını formalaşdıran amillər qruplaşdırma metodika əsasında işlənilmişdir. Kənd təsərrüfatında ümumi gəlirinin istehsal həcmindən asılılığının müəyyənləşdirilməsində reqressiya modelindən, kənd təsərrüfatının fəaliyyətinin nəticələrinə təsir edə biləcək əlverişli və əlverişsiz xarici hadisələri üzə çıxarmaq üçün GZİT təhlili metodundan, müxtəlif təsərrüfat formalı kənd təsərrüfatı subyektlərinə dövlət dəstəyi strategiyasının altı pillədən ibarət modelinin həllində müəllif tərəfindən təklif edilən fərqli yanaşmadan istifadə edilmişdir.

Bundan əlavə, elmi-metodoloji baza kimi müəllif yeri düşdükcə mövzuya aid görkəmli alimlərin əsərlərindən, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarından, Milli Məclisin qəbul etdiyi qanunlardan, Nazirlər Kabinetinin müvafiq qərarlarından, Dövlət Statistika Komitəsinin rəsmi internet resurslarından da bəhrələnmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Dissertasiya işində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- Aqrar iqtisadiyyatın institusional struktur tiplərinin əsas mahiyyətini müəyyən edən keyfiyyət xüsusiyyətlərinin müəyyən edilməsi, kənd təsərrüfatının çoxfunksiyalı sisteminin emergent (onun elementlərinə xas olmayan xassələrin çoxfunksional sistemdə təzahüri) effekti təzahürlərinin müxtəlif komponentlərdə fərqləndirilməsi, “məqsədlər-funksiyalar-struktur-davranış-nəticə” həlqəsi üzrə qarşılıqlı əlaqələr əsasında kənd təsərrüfatının təşkili paradiqmasının genişləndirilməsinə zərurət vardır.
- Aqrar sahənin strateji inkişafını əks etdirən hədəflərin elmi cəhətdən əsaslandırılması və Azərbaycanda kənd təsərrüfatı istehsalına mövcüd olan problemlərin aşkar edilməsi və onun həlli diqqət mərkəzində olmalıdır.
- Kənd təsərrüfatının istehsalı prosesinə təsir amillərinin kompleks modelinin işlənib hazırlması əsasında Azərbaycanda

aqrar sahənin dayanıqlı inkişafının təşkilati-iqtisadi mexanizmləri araşdırılmalı, bu mexanizmin modelləşdirilməsi çərçivəsində aqrar sahənin idarə edilməsi sistemində dəyişikliklərin aparılması alqoritmi işlənilməli və onun konseptual aspektlərinin müəyyənləşdirilməlidir.

- Aqrar sahənin idarə olunmasının qanunauyğunluqları və prinsipləri, idarəetmə sisteminin formalaşması və fəaliyyətinin metodoloji bazasının sistemləşdirilməsi əsasında sahənin dayanıqlı inkişafının yeni təşkilati-iqtisadi mexanizminin modelinin hazırlanmasına ehtiyac vardır.
- Müxtəlif təsərrüfat formalı kənd təsərrüfatı subyektlərinə dövlət dəstəyi strategiyasının mərhələlərlə həlli təklif edilir və bu modeldə proqram və monitorinqlərin aparılması bloklarının aparıcı rolunun müəyyənləşdirilməsi vacıb amil hesab edilir.
- Bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi gəliri ilə ümümi istehsal həcmi arasındakı asılılığın müəyyənləşdirilməsi üçün modelin qurulması tələb olunur.
- Aqrar sahənin inkişafını təmin edən əsas amillərin kombinasiyasından ibarət məqsədlər "ağacının" elementlərinin fəaliyyətinin təşkil edilməsi əsasında aqrar sahədə transformasiya proseslərinin strategi idarə edilməsinin konseptual modelinin tərtib edilməsi tədqiqatın əsas müddəalarından biridir.
- Aqrar sahədə bütün sosial-iqtisadi sistemin inqilabi dəyişikliklərinə səbəb olan silsilə təkamül yeniklərini əks etdirən inklüziv transformasiyanın yeni modelinin təklif olunmasına ehtiyac vardır.

**Tədqiqatın elmi yenilikləri** özündə aşağıdakı elementləri ifadə edir:

- aqrar iqtisadiyyatın inzibati qaydada tənzimlənən və qeyri-formal institusional struktur tiplərinin əsas mahiyyətini müəyyən edən keyfiyyət xüsusiyyətləri araşdırılmış, çoxfunksiyalı sistemin emergent effektinin təzahür formaları müxtəlif komponentlərdə fərqləndirilmiş, kənd təsərrüfatının təşkili paradiqmasının genişləndirilməsinin məqsədəuyğunluğu əsaslandırılmışdır;

- aqrar sahənin strateji inkişafı istiqamətində tədqiqatların nəticələri və müəllif mülahizələri əsasında qloballaşma şəraitində Azərbaycanda kənd təsərrüfatının fəaliyyətinin bir sıra problemləri aşkarlanmış və həlli yolları təklif edilmişdir;
- kənd təsərrüfatının istehsalı prosesinə rıçaq amillərinin təsirinin kompleks modeli işlənmiş, Azərbaycanda aqrar sahənin dayanıqlı inkişafının təşkilati-iqtisadi mexanizmləri araşdırılmış, həmin sahənin idarəetmə sistemində dəyişikliklərin aparılması alqoritmini özündə cəmləşdirən modelin konseptual aspektləri işlənib hazırlanmışdır;
- aqrar sahənin idarə olunmasının qanunauyğunluqları və prinsipləri, idarəetmə sisteminin formalaşması və fəaliyyətinin metodoloji bazasının sistemləşdirilməsi əsasında bu sahənin dayanıqlı inkişafının vəzifələrinə və transformasiya prinsiplərinə uyğun yeni təşkilati-iqtisadi mexanizminin modeli verilmişdir;
- müxtəlif təsərrüfat formalı kənd təsərrüfatı subyektlərinə dövlət dəstəyi strategiyasının mərhələlərlə həlli modeli təklif edilmiş və onun bir sıra blokunun həlledici rola malik olduğu müəyyənləşdirilmişdir;
- bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı müəssisələrinin gəliri və onların ümümi istehsal həcmi arasındakı funksional asılılıq modeli işlənilmişdir;
- aqrar sahənin inkişafını təmin edən əsas məqsədlər formalaşdırılmış və aqrar sahədə transformasiya proseslərinin strategi idarə edilməsinin konseptual modeli tərtib edilmişdir;
- aqrar sahədə bütün sosial-iqtisadi münasibətlərin səmərəli təkmilləşdirilməsinə səbəb ola biləcək silsilə təkamül dəyişikliklərini özündə əks etdirən sistemli transformasiyanın yeni modeli təklif olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat zamanı aqrar sahənin səmərəli sistemli transformasiya fəaliyyətinə mənfi təsir göstərən amillərin təsirinin azaldılması imkanlarından təkcə bu sahənin təşkilatlarında deyil, həmçinin digər istehsal və xidmət sahələrində, təsərrüfat subyektlərində də istifadə edə bilər.

Dissertasiyada əldə edilən nəticələrdən, irəli sürülən təklif və tövsiyələrdən Azərbaycanın aqrar sahənin, xüsusilə, regionların

sosial-iqtisadi fəaliyyətinin yüksəldilməsində aqrar – istehsal zəncirinin rolunun artırılmasında, regionların mövcud potensialından istifadənin səmərəliliyinin qiymətləndirilməsində istifadə edilə bilər. Həmçinin, əldə edilən nəticələrdən aqrar sahənin dayanıqlı inkişafının proqnozlaşdırılmasında və regionların sosial-iqtisadi inkişafı istiqamətində kompleks məqsədli proqramlarının işlənilməsində yararlı ola bilər.

Tədqiqat işinin əsas müddəaları respublikamızın iqtisad yönümlü ali təhsil müəssisələrində uyğun fənlərin tədrisi prosesində mühazirə mətnləri hazırlanarkən də faydalı ola bilər.

Aqrar sahənin sistemli transformasiyasına dair müəllifin əldə etdiyi nəticələr işğaldan azad edilmiş ərazilərimizin kənd təsərrüfatının dirçəlməsində və reinteqrasiyasında da gərəkli ola bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmaqla, müasir dövrdə aktual məsələlər kimi daimi fəaliyyət göstərən elmi seminarlarda müzakirə olunmuş və bəyənilmişdir.

Dissertasiya işinin mövzusu üzrə iddiaçının 6 məqaləsi və 9 tezisi Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, beynəlxalq və respublika əhəmiyyətli elmi-praktik konfranslarının materiallarında dərc olunmuşdur. Çap olunmuş əsərlər sırasında "Formation of the strategy for the development of the agricultural sector in Azebbaijan" (Зопорожье, 2021); "Main indicators of productivity and profitability of working personnel" (Rostov-on-Don, 2021), "Kənd təsərrüfatında müəssisələrin ümumi gəlirinin istehsal həcmindən asılılığının proqnoz modeli" (Bakı, 2021) adlı tezisləri, "Aqrar iqtisadiyyatda xarici iqtisadi fəaliyyətin inkişafının əsas prioritetləri" (Bakı, 2020), "Azərbaycanda kənd təsərrüfatına dövlət dəstəyinin qiymətləndirilməsi metologiyası" (Bakı, 2021), "Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi strategiyasının modeli" (Türkiyə, Nijde, 2021), "Роль аграрного сектора в обеспечении устойчивого развития Азербайджанской экономики" (г.Ростов-на-Дону, РИНЦ, 2021), American İnternational Journal of Business Management jurnalında "The level of employment in agriculture and

its role in reducing long-term unemployment in Azerbaijan" (USA, 2021), Rusiyanın eLİBRARY.RU (РИНЦ) "Концептуальные аспекты стратегии трансформации сельского хозяйства в Азербайджане" (г. Астрахань, 2021), "Kənd təsərrüfatında çoxfunksiyalılığın struktur xüsusiyyətləri" (Bakı, 2022) adlı məqalələri göstərmək olar.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzi.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Giriş (18147 işarə), I fəsil (81370 işarə), II fəsil (64885 işarə), III fəsil (55399 işarə), nəticə (5922 işarə), istifadə olumuş ədəbiyyat siyahısı (23914 işarə), ixtisarların siyahısı (375 işarə) və əlavələr (3757 işarə) daxil olmaqla dissertasiyanın ümumi həcmi 277135 işarədir. Cədvəllər, şəkillər, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələr istisna olmaqla dissertasiyanın işarə sayı 225723-dür.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallğı və işlənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yenilikləri, nəzəri və praktiki əhəmiyyəti və s. göstərilmişdir.

Dissertasiya işinin birinci fəsli **"Aqrar sahənin inkişaf strategiyasının metodoloji əsasları"** adlanır. Bu fəslin birinci altbaşlığında milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsində aqrar sahənin rolu məsələləri tədqiq edilir. Azərbaycanın aqrar sahəsi digər sahələrdən özünəməxsus xüsusiyyətlərinə görə fərqlənir. Bu xüsusiyyətlər Azərbaycanda aqrar sahənin inkişafının qarşısıalınmaz məhdudiyyətlərini əvvəlcədən müəyyənləşdirməyə imkan verir. Aqrar sahənin özünəməxsus xüsusiyyətlərinə coğrafi mövqeyi və təbii-iqlim şəraitini, kənd təsərrüfatı istehsalı amillərini, istehsal fondlarına bağlılığı, ölkənin inkişaf səviyyəsi və resurs potensialını, daxili və xarici bazarlarda kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətini, aqrar sahəyə dövlət dəstəyini, regionlar üzrə

ərazilərin inkişafın xüsusiyyətlərini və s. aid etmək olar.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sənayesi sahələrinin inkişaf etdirilməsi bu sahədə mövcud olan problemlərin aradan qaldırılması istiqamətində müsbət nəticələrin əldə edilməsinə təminat verə bilər. Bu məqsədlə qəbul edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" ndə ölkənin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, həmçinin 2025-ci ilədək uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış özünün strateji inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Bu isə kənd təsərrüfatı sahəsində həm orta, həm də uzunmüddətli dövr üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olmasını ifadə edir.

Kənd təsərrüfatının davamlı inkişafının və ölkədə ərzaq bolluğu yaradılmasının ən vacib yollarından biri aqrar sahədə sistemli transformasiya aparmaqla, bu sahədə özəl bölmənin, o cümlədən dövlət-özəl tərəfdaşlıq münasibətlərinin formalaşması və bazar münasibətlərinə əsaslanan iqtisadi sistemin bərqərar olması hesab edilir[1]. Odur ki, dövlətin aqrar siyasəti orada iştirak edən əhalinin sosial qrupları arasında münasibətlərin tənzimlənməsi fəaliyyətini, kənd təsərrüfatı istehsalının xüsusiyyətlərini və aqrar münasibətlərin tənzimlənməsinin spesifikasını şərtləndirir. İqtisadi münasibətlərin iştirakçıları şəxsi yardımçı təsərrüfatlar, fermerlər, kənd təsərrüfatı müəssisələri və yerli dövlət hakimiyyəti orqanları institusional strukturları çərçivəsində fəaliyyət göstərirlər, müvafiq olaraq, öz məqsədlərini, oriyentirlərini və davranışlarını dəyişdirirlər. Ümumilikdə, aqrar iqtisadiyyatın institusional strukturlarını iki əsas: inzibati tənzimlənən və qeyri-formal növə ayırmaq olar. İnstitusional strukturların bu tiplərinin əsas mahiyyətini müəyyən edən keyfiyyət xüsusiyyətlərinin təhlili cədvəl 1-də verilmişdir.

---

[1] Буздалов, И.Н. Основное направление обеспечения устойчивости сельского развития //-Москва: Экономика сельскохозяйственных и перерабатывающих предприятий, - 2013. -№7, -с. 1-8

**Cədvəl 1.**

**Aqrar iqtisadiyyatın institusional struktur tiplərinin keyfiyyət xüsusiyyətləri**

| № | Xüsusiyyətlər, əlamətlər | İnzibati tənzimlənən | Qeyri-formal |
|---|---|---|---|
| 1 | Dominant münasibətlər | Hakimiyyətli | Etibarlı |
| 2 | Qarşılıqlı münasibətlərin strukturlaşması | İyerarxikləşdirilmiş | Fərdiləşdirilmiş |
| 3 | Qayda-qanunun saxlanılması mexanizmi | İnzibati | Mədəni-ənənəvi |
| 4 | Əks əlaqə formaları | Mülki və inzibati şikayətlər | Reputasiyalar |
| 5 | Qarşılıqlı əlaqələrin istiqamətləndirilməsi | Şaquli | Şəbəkə |
| 6 | Aldadıcı yolla da olsa öz marağına görə sanksiyalar | Reqressiv | Mənəvi |

*Mənbə [119, s.26-33; 122, s.1-8] əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Azərbaycanın ərzaq təhlükəsizliyini təmin edən aqrar sahə ölkənin xalq təsərrüfatı sistemində ən mühüm struktur formalaşdırıcı yer tutur. Belə ki, 2020-ci ildə kənd təsərrüfatı məhsullarının ümumi daxili məhsulda (ÜDM) payı 6,9%, o cümlədən bitkiçilik məhsullarının payı 3,26% və heyvandarlıq məhsullarının payı 3,64% təşkil etmişdir. Ölkənin ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi, o cümlədən ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsinin yüksəldilməsi istiramətlərini əhatə edən "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" ndə müəyyən edilmiş çoxsaylı prioritetlər çərçivəsində geniş əhatəli tədbirlər nəzərdə tutulmuşdur.

Dissertasiyada aqrar sahənin milli iqtisadiyyatda və sosial-iqtisadi inkişafda rolu araşdırılır və göstərilir ki, 2021-ci ildə ÜDM-da aqrar sahənin payı 5,9%, iqtisadi fəal əhalinin payı 36,3%, ölkənin əsas fondlarında payı 3,8%, əsas kapitala yönəldilən investisiyada payı 2,0% təşkil etmişdir. Aqrar sahə əhalinin ərzaqla, emal sənayesinin isə xammala təmin edən mənbədir.

"Kənd təsərrüfatı istehsalının çoxfunksional xarakterinin nəzəri əsaslandırılması" adlanan ikinci altbaşlıqda kənd təsərrüfatının bir tərəfdən kənd ərazilərinin inkişafı üçün təməl sahəsi olması, digər

tərəfdən, bütövlükdə dövlətin milli iqtisadiyyatının inkişafında onun ərazi bütövlüyünün və milli identikliyinin qorunmasının geosiyasi funksiyasının yerinə yetirilməsi vasitəsilə müəyyənləşdirici rol oynadığı qeyd edilir.

Tədqiqat işində müəllif ilk dəfə olaraq kənd təsərrüfatının çoxfunksiyalı sisteminin emergent effekti təzahürlərini üç komponentdə: cəmiyyət, istehlakçılar və istehsalçılar üçün fərqləndirmişdir. Çoxfunksiyalı kənd təsərrüfatının tədqiqinə sistemli yanaşma, onun fəaliyyətinin nəticələri və inkişaf tendensiyaları imkan verir ki, "məqsədlər-funksiyalar-struktur-davranış-nəticə" üzrə qarşılıqlı əlaqələr əsasında kənd təsərrüfatının təşkili paradiqması aydınlaşdırılsın və genişləndirilsin. Bu qarşılıqlı əlaqədə kənd təsərrüfatının fəaliyyətinin və inkişafının təşkilati-iqtisadi mexanizmi xüsusi rol oynayır. Bu əsasda kənd təsərrüfatı fəaliyyətinin məzmunu, əhatəliliyi və dinamikliyi aspektlərini əks etdirən elemetlər müəyyənləşdirilmişdir. Dissertasiya işində kənd təsərrüfatının çoxfunksional xüsusiyyətləri haqqında tədqiqatçıların fikirləri və bu istiqamətdə müəllifin araşdırmaları sistemləşdirilərək onun ümumiləşdirilmiş xüsusiyyətləri qeyd edilmişdir.

Tədqiqat işinin birinci fəslinin sonuncu altbaşlığı Azərbaycanda və xarici ölkələrdə aqrar sahəyə dövlət dəstəyinin qiymətləndirilməsinin metodoloji əsaslarının tədqiqinə həsr edilmişdir. Burada müəllif göstərir ki, aqrar sahənin strateji inkişafını hərtərəfli əhatə edən bir sıra konseptual xarakterli məsələlərin ardıcıl və planlı həllinə kənd təsərrüfatı istehsalının davamlı və sabit geniş təkrar istehsalı prosesi, həmçinin xarici və daxili mühit amillərinin düzgün və vaxtında qiymətləndirilməsi və s. hesabına nail olmaq mümkündür. Aqrar sahənin strateji inkişafının təmin edilməsinə dövlət dəstəyinin artırılması məqsədi ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 yanvar tarixli qərarları"na əsasən kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində istifadə edilən və lizinq müqaviləsinin obyekti olan əksər maşın və texniki vasitələr, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 yanvar tarixli qəralarına müvafiq olaraq ölkəyə idxal olunan safcanlı iri buynuzlu heyvanlar, cins qoyunlar və keçilər, əkin məqsədli soya paxlalılar, günəbaxan, şəkər çuğunduru və yonca

toxumları, gübrələr, bəzi aqrokimyəvi maddələr, bir sıra kənd təsərrüfatı və emal texnikası və s. idxal edilərkən idxal rüsumundan və əlavə dəyər vergisindən azaddırlar.

Dünya ölkələrində də kənd təsrrüfatı məhsullarının istehsalının inkişaf etdirilməsi üzrə dövlətlər tərəfindən həlledici addımlar atılır. Məsələn, çay, subtropik və sitrus bitkiləri istehsalı üzrə ən böyük istehsalçı ölkələrə Çin, Hindistan, Keniya, Şri-Lanka, Türkiyə və İndoneziya daxildir və onların istehsal etdiyi çay məhsullarının 60-65 faizi daxili tələbatın, 35-40 faizi isə ixrac tələbatının təmin edilməsinə yönəldilir.

Rusiyanın aqrar-sənaye kompleksi sistemində kənd təsərrüfatı əhəmiyyətli istehsal ehtiyatlarına malikdir, belə ki, o, kənd təsərrüfatı torpaqlarının 13%-ni və planetin qaratorpaq ərazilərinin 50%-ni əhatə edir[2]. Kənd təsərrüfatının istehsal və mübadilə prosesi iqtisadiyyatın 20-dən çox sahələri ilə əlaqəlidir.

Dissertasiya işinin ikinci fəsli **“Azərbaycanda aqrar sahənin mövcud vəziyyətinin təhlili”** adlanır. Burada Azərbaycan Respublikasında aqrar sahənin mövcud vəziyyətinin təhlili aparılmışdır. Kənd təsərrüfatının, kəndin və fermer təsərrüfatlarının problemlərinin həlli yenə də prioritet məsələ olaraq qalmaqda davam edir. Kənd təsərrüfatı həmişə olduğu kimi iqtisadiyyatın əsasını təşkil edir. Ölkələr şəhər və kəndlərin uzunmüddətli inteqrasiya mexanizmini yaratmaqla modernləşmə yolu ilə getməyə cəhd göstərirlər. Kənd təsərrüfatının müxtəlif təyinatlı torpaq sahələrinin təhlilindən göründüyü kimi, 2003-cü illə müqayisədə 2021-ci ildə ərazidə dəyişiklik olmamış (86,6 min km$^2$), kənd təsərrüfatına yararlı torpaqlarda 0,53% artım olduğu halda hər adama düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi 0,1 ha və ya 24,6% azalmışdır. Həmçinin, müqayisə edilən dövrdə ümumi əkin yerində 0,2709 ha və ya 15,2%, meşə ilə örtülü sahələrdə 0,25% artım olduğu halda, dincə qoyulmuş torpaqlarda-13,5 ha və ya 25,5%, çoxillik əkmələrdə 15,3%, biçənək və örüş-otlaq sahələrində 9,9% azalma baş vermişdir. Pandemiya şəraiti ilə əlaqədar dünyada iqtisadi artımın ləngiməsi

[2] Арский, Д.Б. Методология управления земельными ресурсами на региональном уровне / Д.Б. Арский. -Н. Новгород: Волго-Вятской академии государственной службы, -2015,-102 с.

fonunda Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatının statusu yenə də prioritet sahə kimi dəyişməz olaraq qalmışdır. Azərbaycanda iqtisadiyyatında ümumi daxili məhsul istehsalında kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi önəmli yerlərdən birini tutur. Statistik məlumatlara əsasən qeyd etmək olar ki, ümumi istehsalda 2003-cü ildə kənd təsəərrüfatının payı 12,4% təşkil etmiş, lakin son on illik ərzində (2011-2021) bu göstərici 1,8-2,2 dəfə azalaraq 5,0-6,7% hüdudunda olmuşdur. Lakin, 2003-cü ilə nisbətən 2021-ci ildə ÜDM-in həcmi artaraq 5 milyard 456 milyon manat olmuşdur. 2003-cü illə müqayisədə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın ÜDM-in həcmində 2021-ci ildə artım olmuş və bu göstərici 5,6 dəfə təşkil etmişdir. Eyni zamanda, 2003-cü ildə bu sahə cəmi ÜDM-in strukturundakı payı baxımından yalnız sənayedən sonra ikinci sırada yerləşdiyi halda, 2020-ci ildə sənaye, xalis vergilər, nəqliyyat və rabitə və tikintidən sonra beşinci sırada yer almışdır. Fikrimizcə, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsinin ÜDM-in strukturunda xüsusi çəkisinin son illərdə müəyyən qədər azalmasını iqtisadiyyatın digər sahələrində istehsal həcminin artımı ilə əlaqələndirmək mümkündür.

Aqrar sahənin strateji inkişafına təsir göstərən əsas amillərdən biri də bu sahəyə yönəldilmiş investisiyanın həcmidir. Azərbaycanın aqrar siyasətində nəzərdə tutulan məsələlərin, o cümlədən kənd təsərrüfatında iqtisadi artımın stabilliyinə nail olunması, məşğulluq səviyyəsinin yüksəldilməsi, məhsulların qiymət stabilliyinə nəzarət edilməsi, ölkənin ərzaq təhlükəsizliyi və aqrar sahənin rəqabətliyinin təmin edilməsi, müəssisələrinin gəlirliliyi və ödəmə qabiliyyətinin yüksəlməsi, normal sosial şəraitin yaradılması və əhalinin yüksək həyat tərzinə nail olunması kimi vacib əhəmiyyətə malik olan məsələlərin həllində bu sahəyə yönəldilmiş yerli və xarici investisiya həcminin rolu danılmazdır.

Yuxarıda qeyd edilənlər bir daha göstərir ki, ölkənin xalq təsərrüfatı kompleksi sistemində kənd təsərrüfatı strateji və sosial əhəmiyyətli sahələrdən biridir, onun səmərəliliyinin artırılması həmişə vacibdir və aqrar sahədə təsərrüfatçılığın bütün istiqamətlərində sistemli transformasiyanın aparılması zərurəti yaranır.

Tədqiqat işinin bu fəslinin ikinci altbaşlığında aqrar sahənin sistemli transformasiyasını formalaşdıran amillər tədqiq edilmişdir.

Azərbaycanda aqrar sahənin dayanıqlı inkişafı ilə bağlı məsələlərin sürətli həllinə kənd təsərrüfatı istehsalının davamlı və sabit geniş təkrar istehsalı prosesinə nail olunması rıçaq amillərinin vaxtında qiymətləndirilməsi hesabına mümkündür (sxem 1).




**Sxem 1. Kənd təsərrüfatı istehsalı prosesinə rıçaq amillərin kompleks təsiri modeli**

*Mənbə: Müəllif tərtib etmişdir.*

Müəllifin fikrincə, Azərbaycanda aqrar-emal məhsulları istehsalının dayanıqlı inkişafı ilə bağlı məsələlərin sürətli həllinə kənd təsərrüfatı istehsalının davamlı və sabit geniş təkrar istehsalı prosesinə nail olunması rıçaq amillərinin vaxtında qiymətləndirilməsi hesabına mümkündür. Həmçinin, aqrar sahənin davamlı və geniş təkrar istehsalı üzrə beynəlxalq və yerli təcrübə kənd təsərrüfatı istehsalı proseslərinə təsir edən maksimum sayda amilləri müəyyən

etməyə imkan verir. Belə ki, xarici mühit amilləri sırasında ətraf mühitin birbaşa və dolayı təsir amilləri xüsusilə fərqləndirilməlidir.

Bu modeldə kənd təsərrüfatı məhsullarının istehsal ilə bağlı məlum olan, lakin heç də həmişə nəzərə alınmayan bir sıra amillər təqdim olunur: 1) kənd təsərrüfatı istehsalının təşkilati-istehsal xüsusiyyətləri ilə əlaqəli amillər (xammal emalının texnoloji prosesi, istehsalın mövsümi olması, ilkin xammalın və hazır məhsulun daşına bilməsi və saxlanılma şəraiti); 2) bazar münasibətləri ilə kənd təsərrüfatının inkişafı üçün məhsulların geniş təkrar istehsalında mühüm rol oynayan xüsusiyyətləri (kənd təsərrüfatı məhsullarının ehtiyatları, ayrı-ayrı məhsullara ödəniş qabiliyyətli tələbin həcmi və strukturu). Dissertasiya işində kənd təsərrüfatı istehsalı prosesinə təsir göstərən rıçaq amilləri ümumiləşdirilmiş və onun əsasında Azərbaycanda aqrar sahənin dayanıqlı inkişafının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsinə zəmin yaradan əsas elementlər müəyyənləşdirilmişdir. Dayanıqlı inkişafı təmin edən təşkilati-iqtisadi mexanizminin modelləşdirilməsi ilə bağlı nəzəri-metodoloji müddəaların müqayisəli təhlili əsasında konseptual aspektlər formalaşdırılmışdır ki, bu da, ölkənin aqrar sahəsinin idarə edilməsi keyfiyyətinin yeni səviyyəsini təmin edə bilər. Fikrimizcə, kənd təsərrüfatı istehsalının iqtisadi mexanizminin ən mühüm funksiyası kənd təsərrüfatı əmtəə istehsalçılarının bazara uyğunlaşması və səmərəli fəaliyyətinin təşkili baxımından prosesə təsir edən rıçaqlara prinsipial və yeni yanaşmanın formalaşdırılmasıdır. Odur ki, işdə Azərbaycanın aqrar sahəsinin dayanıqlı inkişafının keyfiyyətcə yeni təşkilati-iqtisadi mexanizminin modelləşdirilməsinin əsaslandırılmış konseptual aspektləri çərçivəsində aqrar-emal müəssisələrinin idarə edilməsi sistemində dəyişikliklərin aparılmasının alqoritmi verilmişdir.

Fikrimizcə, aqrar sahənin dayanıqlı inkişafının təşkilati-iqtisadi mexanizmi modelinin keyfiyyətli fəaliyyətini yalnız ən yeni informasiya texnologiyaları və müasir kompüter texnologiyası, telekommunikasiya və proqram təminatından istifadə etməklə həyata keçirmək mümkündür.

Bu fəslin üçüncü altbaşlığında kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi strategiyasının modelinin verilməsinə cəhd edilmişdir. Regionların uzunmüddətli sosial-iqtisadi inkişafı

dövlətin strateji vəzifəsidir ki, bu da regional idarəetmənin düzgün təşkilindən çox asılıdır. Belə ki, regional idarəetmənin əsasını regionların kompleks inkişafını təmin edən proseslərin dəqiq və müfəssəl qurulmasını şərtləndirir. Regionların sosial-iqtisadi sisteminin mahiyyətinin nədən ibarət olduğunu müəyyən etmək üçün yeni meyllərin, qanunauyğunluqların, amillərin və regional inkişaf şəraitinin öyrənilməsi başlanğıc və mühüm şərtlərdən biri hesab edilir. Sosial-iqtisadi sistemlər ayrı-ayrı subyektlər, onların qrupları və icmaları arasında maddi, energetik və informasiya münasibətlərinin spesifik sistemləridir, bu sistemlərə bir sıra əsas xüsusiyyətlər xasdır: bütövlük, iyerarxiklik, inteqrativlik, idarəetmə. Azərbaycanın kənd ərazilərinin sosial-iqtisadi inkişafı istiqamətində 2020-2021-ci illərdə apardığımız sosioloji sorğular güman edilən ehtimalları təsdiq edir: rəy sorğusunda iştirak edənlərin əksəriyyəti (77,0 %) tam əmindir ki, kənd təsərrüfatı hələ də ASK-nın digər sahələri üçün yalnız yararlı sahə kimi qalmaqdadır, dövlətin qiymət balansının təkmilləşdirilməsi və bərpasına təsir mexanizmini əhəmiyyətli dərəcədə yüksəltmək istiqamətində müvafiq tədbirlər görməsi məqsədəuyğun hesab edilir. Həmçinin, bu ərazilərdə bütün infrastrukturun yenidən qurulması, məhsuldar kənd təsərrüfatı təyinatlı torpaqların istifadəyə yararlı hala salınması, gənc nəslin digər yaş qruplu əhali ilə birgə yerləşdirilməsi üçün yeni müəssisələrin yaradılması və yeni iş yerlərinin açılması, Qarabağ layihələrinin, o cümlədən ağıllı şəhər və kənd tipli layihələrin həyata keçirilməsi və s. olmadan Azərbaycanın həm ərzaq, həm də geosiyasi təhlükəsizliyinə nail olmaq mümkün deyildir.

Dissertasiya işinin üçüncü fəslində **Azərbaycanda aqrar sahənin sistemli transformasiyasının perspektivləri** tədqiq edilir. Bu fəslin “Kənd təsərrüfatının gəlirinin istehsal həcmindən asılılığı modeli və qiymətləndirilməsi” adlanan altbaşlığında araşdırılır ki, müxtəlif növ təsərrüfat formalarının inkişaf etdirilməsinin əsas şərtlərindən biri məhsulun istehsal həcminin artırılmasıdır. Ona görə də aqrar sahədə bazar münasibətlərinin formalaşdırılması və inkişaf etdirilməsi üçün tədbirlər proqramının işlənilməsi və həyata keçirilməsində məhsulun istehsal həcminin artırılmasının proqnozlaşdırılması mühüm əhəmiyyətə malikdir. Tədqiqat işində, kənd təsərrüfatında gəlir ilə

istehsal həcmi arasındakı asılılığın müəyyənləşdirilməsi üçün reqressiya modelinin qurulmasının məqsədəuyğunluğu qeyd edilmiş və bu məqsədlə göstəricilər arasında əlaqənin statistik asılılığı verilmişdir. Bütün təsərrüfat kateqoriyaları üzrə müəssisələrin gəlirləri və məhsulun istehsal həcmi arasındakı əlaqənin statistik asılılığını xətti reqressiya tənliyi ümumi halda

$$y_{xi}=a_0x_0+a_1x_1\,, \quad (1)$$

şəklində yazılır. Burada: $y_{xi}$ - müəssisələrin gəlirləri, mln. manat;

$x_1$ – müəssisələrin istehsal həcmi, mlyn. manat;

$a_0$ və $a_1$ -əmsallardır.

$a_0$ və $a_1$ əmsallarının qiymətlərini ayrı-ayrı üsullarla müəyyənləşdirmək olar. Bu əmsalları müəyyənləşdirmək üçün təcrübədə geniş istifadə edilən üsullardan biri ən kiçik kvadratlar metodu hesab edilir.

Azərbaycanda bütün təsərrüfat kateqoriyalarında kənd təsərrüfatı müəssisələrinin gəlirinin məhsulun istehsal həcmindən asılılığının reqressiv təhlili göstərir ki, həqiqətən məhsulun istehsal həcminin yüksək səviyyədə təmin edilməsi ölkəmizdə kənd təsərrüfatı müəssisələrinin inkişafın strateji istiqamətlərindən biri olan gəlirlərinin artırılmasına, bu isə kənd regionlarında əhalinin həyat keyfiyyətinin yüksəlməsinə əlverişli şərait yaratmış olur.

Fəslin ikinci altbaşlığında müəllif əsaslandırır ki, bazar münasibətlərinin institusionallaşdırılması şəraitində kənd təsərrüfatının transformasiyası strategiyası onun iqtisadi inkişafının yeni keyfiyyət mənbələrinin şərt və amillərindən istifadə etməklə kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsinin müsbət dinamikasını təmin etmək imkanı ilə xarakterizə olunur. Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsinin bu müsbət dinamikası iqtisadi inkişafın yeni keyfiyyət mənbələrinin, o cümlədən ölkə ərazisində lokallaşdırılmış sosial, təbii resurs, investisiya və infrastruktur potensialının tarazlaşdırılmış təkrar istehsalının həyata keçirilməsi əsasında təmin edilə bilər. Strategiyanın formalaşdırılması kənd təsərrüfatı istehsalının tətbiq edilməsi sistemlərinin çoxformalı xüsusiyyətləri şəraitində həyata keçirilir, buradan isə onların təsnifləşdirilməsinin çoxcəhətliliyinin

işlənilməsinin vacibliyi şərtlənir. Azərbaycanda kənd təsərrüfatının transformasiyası prosesinin kompleks təhlili və onun rəqabət qabiliyyətinin qiymətləndirilməsi keyfiyyətli artıma və institusionallaşmanın səmərəliliyinin artırılmasına maneçilik törədən neqativ sistemyaradan amilləri aşkar etməyə imkan vermişdir. Aqrar sahənin mövcud inkişaf strategiyasının təhlili göstərir ki, burada əsas məqsəd bütün kənd əhalisinin həyat keyfiyyətinin yüksəlməsində istehsal potensialının modernləşdirilməsi əsasında kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsidir. Dissertasiyada vurğulanır ki, Azərbaycanın kənd təsərrüfatının səmərəli inkişaf konsepsiyasının seçilməsi onun güclü və zəif tərəflərinin müəyyən edilməsini şərtləndirir. Bu baxımdan işdə GZİT təhlili verilmişdir.

Strateji məqsədərin həyata keçirilməsinin idarə edilməsi üzrə beynəlxalq təcrübə göstərir ki, onların əldə edilməsi dövlət hakimiyyəti orqanlarının strateji məqsədə nail olmaq üçün yönəldilmiş qərarların qəbul edilməsi və həyata keçirilməsinin səmərəli mexanizmini qurmaq bacarığından çox asılıdır. Ölkəmizdə aqrar sahənin inkişafında əlverişli innovasiya mühitinin yaradılması, kiçik innovasiya müəssisələrinin stimullaşdırılması, yeni istehsal texnologiyalarının tətbiqi məsələlərində dövlət müdaxiləsinin çoxcəhətli iqtisadi alətləri tətbiq edilir ki, bunlara indikativ qiymətqoyma, kreditləşmə və sığortanın dəstəklənməsi, vergitutma üzrə güzəştlər, subsidiyalaşdırma, proqram-məqsədli idarəetmə və s. aiddir.

Dissertasiya işinin üçüncü fəsilində son altbaşlıq Azərbaycanda aqrar sahənin sistemli transformasiya modelini əhatə edən məsələlərin tədqiqinə həsr edilmişdir. Burada müəllif qeyd edir ki, müasir şəraitdə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən aqrar sahənin transformasiyasının zəruriliyinin təmin olunması vacib şərtlərdən biri hesab edilir. Belə ki, aqrar sahənin bütün fəaliyyətinin yeni iqtisadi mexanizmi çevik, dayanıqlı olmalı, o, ölkənin aqrar sahəsini formalaşdıran bütün amillərin məcmusunu nəzərə almaqla həm sosial-iqtisadi, həm də təbii qanunların tələblərinə cavab verməlidir. Aqrar-iqtisadi sistemin transformasiyası iqtisadi münasibətlərin yenidən qurulması və ya dəyişdirilməsi prosesini özündə əks etdirir və bu sistemin transformasiyasına təkamül, inqilabi və islahat aspektlərindən yanaşmaq olar. Azərbaycanın aqrar sahəsində mövcud vəziyyət

çoxillik institusional islahatların nəticəsidir.

Aqrar-iqtisadi sistemin transformasiyası iqtisadi münasibətlərin yenidən qurulması və ya dəyişdirilməsi prosesini özündə əks etdirir. Bu sistemin transformasiyasına üç aspektdən yanaşmaq olar: təkamül, inqilabi və islahat. Azərbaycanın aqrar sahəsində mövcud vəziyyət çoxillik institusional inqilabın və islahatların nəticəsidir. Müstəqillikdən sonra ölkənin aqrar institusional cəmiyyətində aparılmış islahatların nəticəsi göstərir ki, bu sahədə aparılan bütün dəyişikliklər silsilə şəklində baş verir. Aqrar institusional sistemdəki bu dəyişikliklər nəticəsində silsilə dəyişiklik mexanizmini tərtib etmək olar. Bu mexanizmin zəncirvari reaksiyaları öz aralarında baş verən silsilə asılıq ilə xarakterizə olunur. Aqrar institusional sistemin silsilə inqilabi transformasiya mexanizmi şəkil 1-də verilmişdir.




**Şəkil 1. Aqrar institusional sistemin silsilə inqilabi transformasiya mexanizmi**

*Mənbə: müəllif tərtib etmişdir*

Aqrar sahənin transformasiyası altında ölkə iqtisadiyyatında bu sahənin təşkilati-iqtisadi fəaliyyətinin struktur, forma və üsullarının, həmçinin idarəetmə təsirlərinə əsaslanan, onun məqsədli hədəfə istiqamətinin dəyişdirilməsi başa düşülür. Aqrar sahənin tədqiq olunan sistemli transformasiyası halında söhbət ölkədə bütün sosial iqtisadi sistemin inqilabi dəyişikliklərinə səbəb olan müəyyən sistem daxilində silsilə təkamül dəyişikliklərindən gedir. Bu baxımdan da, müəllif tərəfindən ölkə iqtisadiyyatının aqrar sahəsinin sistemli transformasiyasını əks etdirən yeni model təklif olunmuşdur (sxem 2).




**Sxem 2. Azərbaycan iqtisadiyyatının aqrar sahəsinin sistemli transformasiya modeli**

***Mənbə:*** *müəllif tərtib etmişdir*

Modeldən göründüyü kimi, Azərbaycanın aqrar sahənin transformasiyası iki səviyyədən ibarətdir:

- institusional transformasiya;
- məkan transformasiyası.

Məkan transformasiyası yalnış hər hansı bir məkan çərçivəsində ola biləcək bir dəyişikliyi özündə əks etdirir. Lakin institusional transformasiya iki yolla həyata keçirilir: təkamül transformasiyası və islahatlı-inqilabi transformasiya. Dissertasiya işində Azərbaycanın aqrar sferasında baş verən dəyişikliklər islahatlı-inqilabi transformasiya formasını özündə ehtiva edir. Dəyişikliyin bu formasının demoqrafik, sosial-iqtisadi, torpaq-resurs, aqrar sahənin inkişafını təmin edən elmi-texniki sistem və buradakı sahə və müəssisələrin təşkilati strukturu aspektlərində həyata keçirilməsi müəllif tərəfindən təklif edilmişdir.

Tədqiqat materiallarında çıxış edərək aşağıdakı **nəticələri, yeni elmi yanaşmaları, təklif və tövisiyələri** ümumiləşdirməyi lazım bilmişik:

1. Ölkənin xalq təsərrüfatı kompleksi sistemində kənd təsərrüfatı strateji və sosial əhəmiyyətli sahələrdən biridir, onun səmərəliliyinin artırılması həmişə labüddür və aqrar sahədə təsərrüfatçılığın bütün istiqamətlərində müasir tələblər baxımından sistemli transformasiyanın aparılması zəruridir;
2. Kənd təsərrüfatının çoxfunksional xüsusiyyətlərinin tədqiq edilməsinin metodoloji əsasını sistemli ideologiyadan düzgün bəhrələnmə, o cümlədən elmi cəhətdən əsaslandırılmış struktur-funksional yanaşma təşkil edir;
3. Kənd təsərrüfatının strukturunun formalaşması və inkişafı onun missiyası, məqsədləri və funksiyalarına cavab verməli, həmçinin "məqsəd-funksiyalar-struktur-davranış-nəticə"dən ibarət qarşılıqlı əlaqələrinə əsaslanmalı və tələb olunan emergetik effektin nəticələrinin əldə edilməsinə xidmət göstərilməlidir;
4. Aqrar iqtisadiyyatın institusional strukturlarını inzibati tənzimlənən və qeyri-formal növə ayırmaq olar. İnstitusional strukturların qeyd edilən tiplərinin əsas mahiyyətini müəyyən edən keyfiyyət xüsusiyyətlərinə əsasən fermer təsərrüfatının ən çox hansı institusional struktura orientasiya etməsindən asılı olaraq onun

növlərini fərqləndirmək mümkündür. Çoxfunksional kənd təsərrüfatına cəmiyyətin həyati təminatının mürəkkəb təbii-sosial-iqtisadi sistemi kimi baxsaq, kənd təsərrüfatının missiyasından formalaşan emergent təsir cəmiyyətin fəaliyyəti və inkişafının davamlı baza şərtlərinin təmin edilməsindən ibarətdir. Bir sistem kimi çoxfunksional kənd təsərrüfatının emergent təsiri onun fəaliyyətinin nəticələrində özünü göstərir;

5. Aqrar sahənin strateji inkişafı istiqamətində aparılmış tədqiqatlar üzrə müəllifin şəxsi araşdırmaları və ölkədə kənd təsərrüfatının fəaliyyətinin təhlili əsasında ona maneçilik göstərən bir sıra problemlər aşkar edilmiş və onların aradan qaldırılması yolları təklif edilmişdir;

6. Tədqiqat işində kənd təsərrüfatı istehsalı prosesinə rıçaq amillərinin kompleks təsiri sistemləşdirilmişdir. Burada kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə-təsərrüfat fəaliyyətinə təsir göstərən ənənəvi amillərdən fərqli olaraq kənd təsərrüfatı məhsullarının istehsal ilə bağlı məlum olan, lakin heç də həmişə nəzərə alınmayan bir sıra amillər aşkar edilmişdir;

7. Tədqiqat nəticəsində müəllif belə bir qənaətə gəlmişdir ki, Azərbaycan iqtisadiyyatında aqrar sahənin rolunun və rəqabət qabiliyyətinin yüksəldilməsini əks etdirən sistemli transformasiyanın və onun müvafiq modelinin işlənməsinin zərurəti vardır;

8. Aqrar sahənin dayanıqlı inkişafının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsinə zəmin yaradan əsas elementlər müəyyənləşdirilmiş, aparılmış tədqiqatlar əsasında onun aqrar-emal məhsulları istehsalının idarə olunmasının qanunauyğunluqları və prinsipləri göstərilmiş, idarəetmə sisteminin formalaşması və fəaliyyətinin metodoloji bazası aşkarlanmış və sistemləşdirilmişdir ki, bu da müəllifin aqrar sahənin dayanıqlı inkişafının yeni təşkilati-iqtisadi mexanizminin modelini işləməsinə imkan vermişdir;

9. Kənd təsərrüfatı müəssisələrinin istehsal həcmindən asılı olaraq ümumi gəlirinin qiymətləndirilməsi digər prioritet məsələlərlə yanaşı aqrar sahədə investisiya fəaliyyətinin yeni tələblər baxımından səmərəli təşkilinin işlənməsini tələb edir;

10. Müxtəlif təsərrüfat formalı kənd təsərrüfatı subyektlərinə dövlət dəstəyi strategiyasının altı pillədən ibarət olan modeli onların

qarşılıqlı əlaqəli elementlərini özündə cəmləşdirir: əsas məqsədlərin müəyyən edilməsi, dövlət dəstəyinin prioritet istiqamətlərinin əsaslandırılması, dövlətin dəstək göstərəcəyi aqrar-büdcə subyektlərinin ayrılması; dövlət dəstəyinin metod və formalarının seçilməsi; dövlət dəstəyinin konkret tədbirlərinin işlənib hazırlanması, dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsi mexanizminin formalaşdırılması. Aqrar sahəyə dövlət dəstəyi formalarının ahəngdar birləşməsi onun həyata keçirilmə mexanizminə əlavə sabitlik və səmərəlilik verir. Müəyyən edilmiş şərtlər altında onların qarşılıqlı əlaqəsi sinergetik (kooperativ) effektin əldə olunmasına səbəb ola bilər;

11. Bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı müəssisələrinin gəliri ilə məhsulun ümumi istehsal həcmi arasında əlaqə modeli $y_{xi} = -5{,}8362 + 0{,}0214x_i$ verilmişdir. Parametrlərin əhəmiyyətliliyini müəyyənləşdirmək üçün t-Styudent statistikası və F-test Fişer-Snedekor meyarına əsasən modelin əhəmiyyətliliyinin qiymətləndirilməsi aparılmışdır;

12. Azərbaycanda aqrar sahənin inkişafının prioritet istiqamətləri həm xüsusi spesifikaya malikdir, həm də bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir, lakin onun subyektlərinin əksər hissəsi iqtisadiyyatın resurs-enerji qənaətliliyi əsasında modernləşdirilməsini əsas istiqamət olaraq seçirlər. Aqrar sahənin inkişafını təmin edən formalaşdırılmış əsas məqsədlərin kombinasiyasından ibarət məqsədlər "ağacı" tərtib edilmiş və onun elementlərinin məzmunu müəyyənləşdirilməsi əsasında aqrar sahədə transformasiya proseslərinin strateji idarə edilməsinin konseptual modeli tərtib edilmişdir;

13. Dissertasiyada aqrar institusional sistemin dairəvi sinergetik mexanizmi tərtib edilmiş, aqrar sahədə transformasiya dəyişikliklərinin mənfi nəticələrinin xüsusiyyətləri müəyyənləşdirilmiş, Azərbaycan iqtisadiyyatında aqrar sahənin yeni inklüziv sistemli transformasiya modeli təklif edilmişdir;

14. Tədqiqat işi aqrar sahənin gələcək transformasiyası strategiyasının konseptual aspektlərini və onların reallaşdırılması mexanizmini əsaslandırmağa imkan vermişdir ki, bu da institusional parametrlərin keyfiyyətli inkişafının göstəricisidir;

15. Dissertasiya işində təklif olunan nəzəri müddəalar və metodiki tövsiyələr praktiki olaraq ölkənin aqrar sahəsinin dayanıqlı inkişafının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsini həyata keçirməyə imkan verməklə aqrar istehsalın həcminin artımı proqnozunun yenidən işlənməsini şərtləndirir;

16. Beləliklə, Azərbaycan iqtisadiyyatının aqrar sahəsini əhatə edən və müəllif tərəfindən sistemli transformasiyaya aid təklif edilən bir sıra tövsiyələr və modellər bu vacib sahənin Ümumi Daxili Məhsulun strukturunda xüsusi çəkisinin artırılmasını, ölkənin ərzaq məhsullarına olan tələbatını və ümumi iqtisadi inkişafın sabit artımını təmin etməklə son nəticədə ölkə əhalisinin məşğulluğunun və həyat səviyyəsinin yüksəldilməsi istiqamətlərində görüləcək tədbirlərin reallaşdırılmasında faydalı ola bilər.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər müəllifin dərc olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Səfərov A.T., Məmmədov X. Aqrar iqtisadiyyatda xarici iqtisadi fəaliyyətin inkişafının əsas prioritetləri. "Əmək və Sosial Münasibətlər" elmi-praktik jurnalı. Bakı, -2020, -№ 2(14), - s. 97-104.

2. Safarov A.T., İsmayılov V.T. The level of employment in agriculture and its role in reducing long-term unemployment in Azerbaijan. American İnternational Journal of Business Management (AİJBM). USA, -2021, -Vol. 04, -İssue 04, p.14-24.

3. Səfərov A.T. Kənd təsərrüfatında istehsal prosesinə rıçaq amillərin təsirinin kompleks modeli. "Əmək və Sosial Münasibətlər" elmi-praktiki jurnal. Bakı, -2021, -№ 1 (15), - s. 115-125.

4. Сафаров А.Т., Исмайлов В.Т. Роль аграрного сектора в обеспечении устойчивого развития Азербайджанской экономики. VIII-ая Международная научно-практическая конференция. г. Ростов – на – Дону, -22 марта 2021, - часть 2, - с. 150-155.

5. Safarov A.T., İsmayılov V.T. Assessment of factors affecting the process of agricultural production. Материалы научно–практической конференции. г.Днепр,-16 апрель 2021, -с.234-237.

6. Сафаров А.Т., Исмайлов В.Т. Модель стратегии носподдержки производителей сельхозпродукции. Proceedings of X international scientific and practical conference. London, -5-7 may 2021, -p. 464-473.

7. Safarov A.T., İsmayılov V.T. Formation of the strategy for the development of the agricultural sector in Azerbaijan. II-ая Международная научно-практическая конференция. Зопорожье, -13-14 мая 2021, -2021,-р.322-325.

8. Səfərov A.T. Azərbaycanda kənd təsərrüfatına dövlət dəstəyinin qiymətləndirilməsi metodologiyası. "Tikintinin iqtisadiyyatı və menecment" elmi-praktiki jurnal, Bakı, -2021, -№ 2, - s. 213-222.

9. Səfərov A.T. Azərbaycanda kənd təsərrüfatının transformasiyası strategiyasının konseptual aspektləri. "Əmək və Sosial Münasibətlər" elmi-praktiki jurnalı. Bakı, -2021, -№ 2(16), - s. 158-169.

10. Сафаров А.Т., Исмайлов В.Т. Концептуальные аспекты стратегии трансформации сельского хозяйства в Азербайджане. Сборник материалов национальной научно–практической конференции с международным участием в рамках международного научного форума: «Каспий 2021: пути устойчивого развития», г.Астрахань, 27 мая 2021, с.412-416.

11. Səfərov A.T. Kənd təsərrüfatında müəssisələrin ümumi gəlirinin istehsal həcmindən asılılığının proqnoz modeli. Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Pandemiyanın dünya ölkələrinin sosial – iqtisadi inkişafına təsiri problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, -31 may 2021, s.92-101.

12. Səfərov A.T., İsmayılov V.T. Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi strategiyasının modeli. VIII Uluslararası Türk Dünyası Araşdırmaları Sempozyumu. Niğde, 2-5 iyun 2021, - s. 539-554.

13. Safarov A.T., İsmayılov V.T., Samadova A.K. Main indicators of productivity and profitability of working personnel. Материалы XI международной научно–практической конференции. г. Ростов–на Дону, -23 июня 2021 г., -стр. 353-360.

14. Safarov A.T. Kənd təsərrüfatında çoxfunksiyalılığın struktur xüsusiyyətləri. Aqrar Tədqiqatlar Mərkəzinin “Kənd təsərrüfatının iqtisadiyyatı” elmi-praktik jurnalı. -Bakı, -№1 (39), - 2022, s.92-100.

15. Səfərov A.T. Azərbaycan iqtisadiyyatında aqrar sahənin sistemli transformasiya modeli. Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Modernləşmənin prioritet istiqamətləri: sosiomədəni və iqtisadi – ekoloji aspektlər” mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, - 6 may 2022, s.140-145.

Dissertasiyanın müdafiəsi 27 sentyabr 2023-cü il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 25 avqust 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.08.2023-cü il

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 45707 işarə

Tiraj: 100